საქართველოს პოლიტიკის ინსტიტუტი
GEORGIAN INSTITUTE OF POLITICS

# Analitik Qeyd

May 2020-ci il / Buraxılış # 26

# Türkiyəyə enerji təchizatının təmin olunması: Ankara Azərbaycanın enerji sektoruna investisiya yatırmağa davam etməlidirmi?

Vüqar Baxşəlizadə[1]

## Qısa İcmal

Sovet İttifaqı dağıldıqdan sonra Türkiyə Cənubi Qafqazın yeni müstəqil dövlətləri ilə güclü münasibətlər qurdu. Azərbaycan, ölkənin əhəmiyyətli miqdarda karbohidrogen ehtiyatlarına görə Türkiyənin regionda investisiya yatırdığı əsas ölkəyə çevrildi. Bu məqsədlə, Türkiyə Azərbaycana 11.8 milyard dollar, o cümlədən neft və qaz sahəsinin inkişafına 9.1 milyard dollar investisiya yatırıb (Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi, 2018).[2] Ankaranın uzunmüddətli strategiyası Türkiyəni mühüm enerji (qaz) qovşağına çevirməkdir: Orta Şərqdən (İran, İraq, bəlkə gələcəkdə Qətər), Xəzər dənizi regionundan (Qazaxıstan, Türkmənistan, Azərbaycan) və Rusiyadan (Cənub axını) bütün nəqliyyat marşrutlarının birləşdirilməsi. Əlavə olaraq, Türkiyə təkcə nəqliyyat habına deyil, həm də qaz təchizatçısına çevrilir. Təchizatçılardan qazı aşağı qiymətlərlə almaq və onu Avropa İttifaqına yenidən satmaq Türkyəni əvəzsiz tərəfdaşa çevirəcək, eləcə də Ankaranın regionda siyasi və iqtisadi mövqeyni artıracaq. Bu fikri həyata keçirərək, Türkiyə hökuməti Azərbaycanın qaz və neft layihələrinə investisiya yatırmaqla və bundan faydalanmaqla onu uğurlu nümunəyə çevirməyə cəhd etdi. Bu siyasət rəsmi Bakıya da kömək edir. Azərbaycan bir tərəfdən öz resurslarını inkişaf etdirmək və ixrac potensialını genişləndirmək üçün zəruri maliyyə resursları əldə edir. Bundan əlavə, karbohidrogen ehtiyatlarının satışından əldə etdiyi maliyyə resursları həm hərbi hissələrini böyük ölçüdə müasirləşdirməyə kömək edir, həm də iqtisadiyyatı daha da inkişaf etdirmək üçün zəruri vəsaiti təmin edir. Bu memorandumda Türkiyənin Azərbaycanla bağlı siyasətinin əsaslandırılmış və uğurlu olub-olmadığını aşkar etməyə cəhd göstərilir. Eyni zamanda, son dövrlərdə neftin qiymətinin aşağı düşməsinin təsirləri və bu siyasətlə bağlı COVİD-19 pandemiyasının nəticələrinin qiymətləndirilməsinə də çalışılır. Nəhayət, memorandumda Türkiyənin enerji təhlükəsizliyi və Azərbaycanın iqtisadi inkişafının gücləndirilməsi ilə bağlı son dövrlərdə yaranmış çağırışlarla necə mübarizə aparmaqla bağlı Türkiyə və Azərbaycanın siyasəti müəyyənləşdirən şəxsləri üçün tövsiyələr toplusu təklif olunur.

[1] Vüqar Baxşəlizadə Gürcüstan İctimai Münasibətlər İnstitunda Jurnalistika və Medi İdarəetməsi fakültəsinin magistr tələbəsidir. O, həmçinin, beynəlxalq media qurumlarına siyasi şərhlər də yazır.
[2] Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi, 2018.




İran, İraq, Rusiya və Azərbaycandan Türkiyəyə mövcud və planlaşdırılan boru kəmərləri (Türkiyə Respublikasının Energetika və Təbii Sərvətlər Nazirliyi).

# Giriş

Türkiyənin enerji bazarında Rusiya, İraq və İranın enerji mənbələri uzun müddət hökmranlıq edib. Ancaq Rusiya ilə geosiyasi rəqabət, eləcə də həm İran, həm də İraqda potensial qeyri-sabitlik riskinə görə Türkiyə bir sıra səbəblər üzündən özünün enerji portfelində bu ölkələrin paylarını minimuma endirməyə çalışmaqdadır. Birincisi, Rusiyanın qaz və neftindən həddən artıq asılılıq siyasi baxımdan problemlidir. Rusiya, Ukrayna ilə əvvəl etdiyi kimi, siyasi böhran vaxtı Türkiyə hökumətinə təzyiq göstərmək məqsədilə "qaz silahı"ndan həmişə istifadə edə bilər (Braun, 2019).[3] Məsələn, Rusiyanın Su-24 təyyarəsi Türkiyənin Hərbi-Hava Qüvvələri tərəfindən vurulduqdan sonra Rusiyada Türkiyənin enerji təchizatını kəsmək və ölkənin qazdan asılı olan iqtisadiyyatını təhdid etməklə bağlı qızğın mübahisələr getdi. O zaman Rusiya Türkiyənin qaza olan tələbatının 56%-dən çoxunu təmin edirdi. Təchizat xəttinin hər hansı şəkildə kəsilməsi Türkiyəyə milyardlarla dollara başa gələrdi, çünki ölkənin iqtisadiyyatı və sənayesi Rusiyadan idxal olunan qazdan olduqca asılıdır. Məhz bu səbəbə görə Türkiyə mümkün olduğu qədər çox Rusiyanın qaz və neftindən diversifikasiya etməkdə maraqlıdır.

İranla bağlı vəziyyət də kifayət qədər oxşardır. Bu ölkə həm Türkiyənin regional rəqibidir, həm də öz sərhədləri daxilində ABŞ-ın sanksiyalarının səbəb olduğu qeyri-sabitliyə həssasdır. ABŞ-ın 2018-ci ilin mayından etibarən İrana sanksiyaları yenidən tətbiq etməsi Türkiyənin bu ölkədən qaz və neft idxalını əhəmiyyətli dərəcədə məhdudlaşdırdı. Röyter agentliyinin 2018-ci ildə verdiyi məlumata əsasən, İranın Türkiyəyə xam neft ixracatı gündə 500 min barrel (gmb) təşkil etmişdir. Ancaq ABŞ-ın İranda nüvə sazişindən çəkildiyi 2018-ci ilin mayından əvvəl Türkiyə İrandan ayda orta hesabla 912 min ton neft idxal edird ki, bu da Türkiyənin ümumi idxalının 47%-ni təşkil edirdi.

[3] Braun, Sierra (2019) "Rusiyanın enerji silahından istifadəsi: Rusiya Ukrayna, Gürcüstan, Baltikyanı dövlətlərdə necə manipulyasiya edir," Elmi Üfüqlər: Minnesota Universiteti, Morris Bakalavr Jurnalı: Cild.6: Buraxılış.1, Məqalə 1.

Bundan əlavə, son dövrlərdə İranda əhalinin kütləvi etirazları və Tehranda hökuməti devirməklə bağlı çağırışları Ankarada siyasəti müəyyənləşdirən şəxsləri narahat edir ki, gələcəkdə hər hansı qeyri-sabitlik potensial olaraq neft və qaz təchizatının kəsilməsinə səbəb ola, eləcə də Türkiyənin iqtisadiyyatına zərər yetirə bilər.

Yuxarıda qeyd olunan səbəblər üzündən Türkiyəyə Rusiya və İran tərəfindən enerji təchizatı olduqca problemli və əziyyətlidir. Bu baxımdan, Azərbaycan siyasi baxımdan olduqca sabit olduğuna görə Türkiyə üçün daha çox etibarlıdır. Hazırda OPEC-in statistik məlumatlarına əsasən, Azərbaycanın təsdiq olunmuş təbii sərvətləri təxminən 1.27 trilyon kub metr təşkil edir. Ölkə dünyaya, xüsusilə də Türkiyə və Avropa İttifaqına karbohidrogen resurslarının xalis ixracatçısıdır (Svante E. Kornell, 2019).[4] 2018-ci ildə ixracatın 80%-dən çoxu təkcə enerji sektorunun payına düşmüşdür (Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, 2019).

Azərbaycan Türkiyə bazarında Rusiya və İranın qazı ilə müqayisədə daha yaxşı və təhlükəsiz alternativ təmin edir. Türkiyə Azərbaycandan idxal etdiyi qazın həcmini artırmaqdadır. Məsələn, 2019-cu ildə Türkiyənin Azərbaycandan idxal etdiyi qazın həcmi 24.3%-ə yüksəlmişdir. Bu göstərici 2016-cı ildə 11% təşkil etmişdir. Eyni zamanda, Rusiya və İrandan idxal olunan qazın həcmi də əhəmiyyətli dərəcədə azalmışdır (Türkiyə Respublikasının Enerji Bazarının Tənzimləyici Şurası, EBTŞ, 2019)[5] EBTŞ-nin məlumatlarına əsasən, Rusiyanın Türkiyənin qaz bazarında payı 2019-cu ildə 38%-ə düşmüşdür. Bu göstərici 2016-cı ildə 56% olmuşdur. Rəsmi statistikada göstərilir ki, 2019-cu ildə Rusiyanın "Qazprom" şirkəti Türkiyəyə 14.4 mkm qaz nəql etmişdir. Bu göstərici 2018-ci illə müqayisədə 43% azdır (G. Abay, 2019).[6] Bundan əlavə, boru kəməri layihələri Türkiyə üçün mühüm qazanc təşkil edir. Bu layihələr Şərq və Qərb arasında enerji dəhlizi kimi Ankaranı daha böyük geosiyasi əhəmiyyətlə təmin edir.

Bu mənada, Türkiyə Azərbaycana və onun enerji sektoruna daha çox əhəmiyyət yetirir. Bundan əlavə, Türkiyə və Azərbaycan arasında enerji layihələri Azərbaycana da sərf edir, çünki Ermənistan kənarda qalır və regional enerji layihələrindən təcrid olunur. Eyni zamanda, Türkiyənin və müəyyən mənada Avropa İttifaqının iştirakı ilə Azərbaycan Rusiyanın təsirindən daha çox müstəqillik qazanır, çünki yeni boru xətləri Rusiyadan deyil, Gürcüstan və Türkiyənin ərazilərindən keçir. Bu baxımdan, Azərbaycan və Türkiyə arasında qarşılıqlı asılılıq hər iki tərəfin daha sıx əməkdaşlıq etməsinə gətirib çıxarır. Ancaq Azərbaycanın hər il Türkiyənin ehtiyac duyduğu enerji tələbatını tam təmin etməklə bağlı potensialı məhduddur. Məsələn, Azərbaycan ildə təxminən 29 mkm qaz istehsal edir. Türkiyənin isə illik 50 mkm qaza ehtiyacı var. Bu mənada, Türkiyə öz enerji təchizatını gələcəkdə daha yaxşı təmin etmək üçün əlavə təşəbbüslər işləyib hazırlamalıdır. Bu məqsədlə, bu analitik qeyddə Türkiyə hakimiyyət orqanlarının nəzərə alması üçün tövsiyələr toplusu öz əksini tapacaq.

[4] Svante Kornell. "Gürcüstan-Azərbaycan münasibətləri üçün risk varmı?". Mərkəzi Asiya-Qafqaz Təhlilçisi. 2019,
[5] Türkiyə Respublikasının Enerji Bazarının Tənzimləyici Şurası - EBTŞ, 2019
[6] Abay, Gurkan. "Türkiyənin 2019-cu ildə Rusiyadan qaz idxalı 43% azalıb", Anadolu Agentliyi, 2019,




1. 2018-2019-cu illərdə Türkiyənin qaz tələbatının əksəriyyətini idxal etdiyi ölkələrin siyahısı. **Mənbə**: EBTŞ və ya Türkiyə Respublikasının Enerji Bazarının Tənzimləyici Şurası

# Türkiyənin öz enerji bazarında Rusiya-İran hökmranlığına son qoymaq cəhdləri

Türkiyə Azərbaycandan idxal etdiyi qazın həcmini artırdı ki, bu da Ankaraya Rusiyadan idxal etdiyi qazın həcmini müəyyən qədər azaltmağa imkan verdi (Əlavə 1). Məsələn, Orta Şərq İnstitutunun 2020-ci il üzrə Statistikasına[7] əsaən, Türkiyə 2019-cu ildə Azərbaycandan idxal etdiyi qazın həcmini artırb, eləcə də Rusiya və İrandan idxal olunan qazın həcmini əhəmiyyətli dərəcədə azaldıb. Türkiyənin Enerji Bazarının Tənzimləyici Şurasının (EBTŞ) 2019-cu ildə verdiyi məlumata əsasən, İrandan idxal olunan təbii qazın miqdarı ötən ilin eyni müddəti ilə müqayisədə üçdə bir səviyyəyə qədər azalmışdır. EBTŞ-nin statistik məlumatlarına[8] görə, 2019-cu ildə Rusiya və İran Türkiyəyə ümumi qaz təchizatının müvafiq olaraq 38% və 10.5%-ni təmin etmişdir. Bu özlüyündə ondan xəbər verir ki, Türkiyənin siyasəti müəyyənləşdirən şəxsləri arasında ölkənin enerji bazarında əsas regional rəqiblər olan Rusiya və İranın rolunu azaltmaqla bağlı güclü stimul var. Eyni zamanda, Azərbaycan kimi daha kiçik iştirakçıların gücləndirilməsi nəzərdə tutulur. 2015-ci ildə Rusiyanın Su-24 təyyarəsi vurulduqdan sonra Rusiya və Türkiyə arasında münasibətlər son dövrlərdə bərpa olunsa da, Suriyadakı İdlib böhranı və Qara dənizdə Rusiyanın hərbi qüvvələrinin toplanması üzündən vəziyyət yenə də gərgindir. Buna görə də, Türkiyə Rusiyanın onun qaz bazarında hökmranlığını öz enerji təhlükəsizliyi və yolverilməz həssaslığı üçün ciddi təhlükə hesab edir. Bu, Türkiyənin siyasətini müəyyənləşdirən şəxsləri vadar edir ki, enerji mənbələrini Rusiyadan kənarda mümkün olduğu qədər çox diversifikasiya etmək üçün digər iştirakçılar axtarsınlar. Eyni məntiq İrana da şamil olunur. İran və Türkiyənin Orta Şərq, Qafqaz və digər ərazilərdə regional və sub-regional maraqları üst-üstə düşür. Bundan

[7] Orta Şərq İnstitutunun Statistik məlumatları, 2020

[8] Türkiyə Respublikasının Enerji Bazarının Tənzimləyici Şurası –EBTŞ, 2019

əlavə, ABŞ İran hökumətinə sanksiyaları yenidən tətbiq etdikdən sonra bu ölkədən karbohidrogen idxal etmək daha da çətinləşdi. Məsələn, ABŞ-ın Birgə Müfəssəl Fəaliyyət Planından çəkildiyi 2018-ci ilin mayından əvvəl Türkiyə İrandan hər ay orta hesabla 912 min ton neft idxal edirdi ki, bu da ümumi idxal etdiyi neftin 47%-ni təşkil edirdi. ABŞ 2018-ci ilin noyabrında sanksiyaları tətbiq etdi və məhdud sayda istisnalara icazə verdi. Bundan sonrakı dörd ay ərzində Türkiyə orta hesabla İrandan 209 min ton neft idxal etdi ki, bu da ümumi idxalının 12%-ni təşkil edirdi (Röyter statistikası, 2019). Bütün bu səbəbləri nəzərə alaraq, Azərbaycan Türkiyəyə daha yaxşı və təhlükəsiz alternativ təklif edir. Bu, Türkiyənin Azərbaycandan idxal etdiyi qaz və neftin ciddi şəkildə artmasının əsas səbəbidir. Bu baxımdan, Türkiyənin enerji təchizatında öz mənbələrini diversifikasiya etməkdə maraqlı olduğunu nəzərə alsaq, bu rəqəmlərin əhəmiyyətli dərəcədə artması gözlənilir.




2. Azərbaycanın İran və Rusiya ilə müqayisədə 2019-cu ildə Türkiyənin enerji portfelində payı artır. Orta Şərq İnstitutu, 2020.

Bundan əlavə, Türkiyənin enerji ixrac edən ölkələri boru xətlərini öz ərazisindən keçməklə Avropaya aparmaq üçün inandırmaqla bağlı qətiyyətli cəhdlərinin başqa bir səbəbi də var. Sovet Sosialist Respublikaları İttifaqı (SSRİ) dağıldıqdan sonra Türkiyənin Qərbin nəzərində önəminin əhəmiyyətli dərəcədə azaldığını nəzərə alsaq,Türkiyə öz ərazisini Avropa və Asiya arasında mühüm enerji habına çevirmək üçün qətiyyətlə çalışır, çünki ölkə hər iki qitənin qovşağında yerləşir. Bu mənada, 1990-ci illərdən bəri Türkiyənin hakimiyyəti həm enerji idxalçıları, həm də ixracatçılarının bu ölkənin ərazisində bir araya gəlmələri üçün uzunmüddətli kampaniyaya cəlb olunublar. Bu, özlüyündə Türkiyə hakimiyyətinin təkcə Avropa İttifaqının deyil, həm də Rusiya, İran, İraq, eləcə də Mərkəzi Asiyanın post-Sovet respublikaları kimi enerji ixrac edən Asiya ölkələrinin nəzərində geosiyasi əhəmiyyətini daha da artırardı. Buna görə də, Türkiyənin Azərbaycanın enerji sektoruna investisiyaları bu kontekstdə də şərh olunmalıdır.

Nəhayət, 2020-ci ildə baş vermiş hadisələr, o cümlədən COVİD-19 pandemiyası və enerji qiymətlərinin şok dəyişkənliyi mütləq bazardakı vəziyyətə təsir göstərəcək. Neft və qaz qiymətləri azaldığı üçün Azərbaycan özünün neft-qaz ehtiyatlarını gücləndirmək üçün böyük ölçüdə investisiyayalara ehtiyac duyacaq. Türkiyə Azərbaycana kömək etmək baxımından həlledici tərəfdaş kimi çıxış edə bilər.

Daha sonra, bir neçə ay sonra dünyaya təsir edəcək yaxınlaşmaqda olan iqtisadi böhran Türkiyə üçün faydalı ola bilər, çünki enerji ehtiyatları olan ölkələrin əksəriyyəti Türkiyə vasitəsilə neft və qazı Avropaya satmağa tələsəcəklər. Ankara bu əlverişli vəziyyətdən öz faydaları üçün istifadə edə bilər. Azərbaycan bu baxımdan bütün qaz ehtiyatlarını daxili istehlakdan azad etməli və ixrac potensialına diqqət yetirməli olacaq. Bundan əlavə, Azərbaycan Türkiyənin İzmir şəhərində neft-kimya kompleksinə təxminən 5 milyard ABŞ dolları məbləğində investisiya yatırıb ki, bu da ölkənin indiyə qədər yatırdığı ən böyük investisiya hesab olunur. Bakının strategiyası Dünya okeanına daha yaxın ərazidə belə bir kompleks tikmək və bazarlara daha asan çıxış əldə etmək idi. Hazırda kompleks Rusiya və Azərbaycanın nefti ilə çalışır, lakin gələcəkdə bunun ancaq "Azeri light" markası ilə əvəz olunması planlaşdırılır.

# Nəticələr

Cənubi Qafqazda mühüm oyunçulardan biri olan Türkiyə Azərbaycanla münasibətlərini prioritetləşdirir, çünki Azərbaycan böyük ölçüdə karbohidrogen ehtiyatlarına malikdir. Bu mənada, 1990-cı illərdən bəri Türkiyə Rusiya ilə, eləcə də daha az dərəcədə İranla rəqabətdə daha yaxşı mövqeyə malik olmaq üçün Azərbaycanın enerji sektoruna çoxlu investisiyalar yatırıb. Bundan əlavə, Türkiyənin Azərbaycanın enerji sektoruna mühüm investisiya yatırmağının əsas səbəblərindən biri də onun öz enerji təchizatı mənbələrini diversifikasiya etmək və Anadolunu Şərqin enerji ixracatçıları və Qərbin enerji idxalçıları arasında enerji habına çevirməklə bağlı cəhdləridir.

Yekunda, bu analitik qeyddə müəyyən olunur ki, Azərbaycan daha yaxşı alternativdir və Türkiyənin enerji təchizatı mənbələrini diversifikasiya etmək üzrə enerji strategiyasında mühüm rol oynamaq potensialına malikdir. Bundan əlavə, Azərbaycanın enerji sektoruna investisiyanın yatırılması Türkiyənin Anadolunu mühüm enerji habına çevirməklə bağlı səylərinə öz töhfəsini verəcək. Və bütün bunlar Türkiyənin orta və uzun müddətli perspektivdə enerji təhlükəsizliyinə daha yaxşı təsir göstərəcək.

# Türkiyə və Azərbaycanda siyasəti müəyyənləşdirən şəxsləri üçün tövsiyələr

Bütün problem və çağırışları nəzərə alaraq, Azərbaycan və Türkiyədə siyasəti müəyyənləşdirən şəxslər üçün aşağıdakı tövsiyələr təklif olunur.

**Trans-Xəzər Qaz Kəməri və Türkmənistanın Qaz Yataqlarına investisiyanın yatırılması.** Bu, Türkmənistan və Azərbaycan arasında təklif olunan sualtı boru kəməridir. Onun məqsədi Türkmənistan qazını Rusiya və İrandan yan keçməklə, Azərbaycan vasitəsilə Türkiyə və Avropa İttifaqına gətirməkdir. Türkiyənin qaza olan illik tələbatının təxminən 50 mkm-dən artıq olduğunu və Azərbaycanın təkbaşına bu tələbatı qarşılaya bilməyəcəyini nəzərə alsaq, Türkiyə üçün bu layihənin uğur qazanması strateji cəhətdən mühümdür.

Layihə nəticəsində hər il təxminən 30 mkm qazın nəql olunması gözlənilir. Bu mənada, adıçəkilən layihə Türkiyəyə öz enerji mənbələrini Rusiya və İrandan kənarda diversifikasiya etməkdə daha çox yardımçı ola bilər. Buna görə də, Türkiyə hakimiyyətinə tövsiyə olunur ki, Azərbaycan və Türkmənistan arasında bu layihəyə böyük miqdarda maliyyə və qeyri-maliyyə resurslarının yatırılması məsələsini ciddi şəkildə qiymətləndirsinlər. Bundan başqa, Azərbaycan özü də ölkədə istehlak etdiyi öz qazını Türkiyəyə ixrac edə və bunu Türkmənistanın qazı ilə əvəzləyə bilər.

**Bərpa olunan enerjiyə investisiyanın yatırılması:** Hazırda Azərbaycanda bərpa olunan enerjinin payı olduqca kiçikdir. Azərbaycan Respublikası Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin məlumatına əsasən, Azərbaycanda 2011-ci ildə istehsal olunan elektrik enerjisinin 9%-i bərpa olunan mənbələrdən, əsasən də su-eletrik enerjisindən daxil olub. Ölkədə elektrik stansiyalarının əksəriyyəti qazla işləyir. Belə ki, Azərbaycan qaz istehlakını əhəmiyyətli dərəcədə azalda və onu bərpa olunan enerji ilə əvəz edə bilər. Türkiyə, bu yaxınlarda Səudiyyə Ərəbistanının bir şirkətinin etdiyi kimi, bunun üçün ölkədə bərpa olunan enerjiyə vəsait yatırmalıdır. Bu zaman azad olunan qaz ehtiyatları Türkiyəyə ixrac olunardı. Bunun üçün Azərbaycan öz enerji bazarını liberallaşdırmalı, "Azərenerji"nin monopoliyasını ləğv etməli, eləcə də bazara digər şirkətlərin daxil olmasına icazə verməlidir. Bu baxımdan, Aİ Azərbaycana liberallaşma və investisiyalar baxımından kömək etməkdə mühüm rol oynaya bilər. Bu mənada, Türkiyənin Avropa şirkətləri və hökumətlərini bu layihələrdə həm maliyyə, həm də siyasi dəstəklə daha dərindən cəlb etməsi olduqca vacibdir.

Bu, həm layihələrin davamlılığını artırar, həm də Azərbaycana maliyyə faydaları təmin etməklə, Türkiyə və Aİ-yə öz enerji təchizatı mənbələrini diversifikasiya etməkdə kömək edərdi. Bu mənada, yaxşı olardı ki, Türkiyə Avropa hökumətləri ilə lobbiçilik fəaliyyəti aparsın ki, onlar Cənubi Qafqazda enerji layihələrinə daha çox cəlb olunsunlar.

**Azərbaycan-Türkiyə enerji əməkdaşlığının institusionallaşdırılması:** Türkiyə və Azərbaycan gələcəkdə yarana biləcək potensial çağırışlar və ortaya çıxa biləcək fərqləri aradan qaldırmaq üçün daha hazırlıqlı olmaq məqsədilə enerjiyə əsaslanan münasibətləri institusionallaşdırmağa çalışmalıdır. Əks təqdirdə, güclü institusionallaşdırılmış mexanizm olmadan hər hansı maraqlar toqquşmasını həll etmək çox çətin olardı. Buna görə də, Türkiyəyə çox tövsiyə olunur ki, ictimai münasibətlərə investisiya yatırsın və iki ölkə arasında münasibətlərin institusionallaşdırılmasını ciddi şəkildə nəzərdən keçirsin. Bununla Ankara Bakı ilə olan münasibətini daha uzun müddətli perspektivdə qoruyub saxlaya və Azərbaycandan fasiləsiz enerji təchizatını daha yaxşı şəkildə təmin edə bilər.

## Əlavələr

1. Azərbaycan Türkyənin illik qaz idxalının 11%-ni təmin edir. ABŞ-ın Enerji İnformasiya Administrasiyası, BP-nin Statistik İcmalı, 2016.




2. 2000-ci ildən bəri Türkiyədə ümumi enerji tələbatı. Türkiyə Respublikası Xarici İşlər Nazirliyi.



Gürcüstan Siyasət İnstitutu (GSİ) Tbilisidə yerləşən, gəlir üçün işləməyən, bitərəf tədqiqat və təhlil işləri ilə məşğul olan təşkilatdır. GSİ Gürcüstanda strateji tədqiqat və təşviqat vasitəsilə demokratik institutların təşkilati bünövrəsini gücləndirmək, eləcə də yaxşı idarəçilik və inkişafı təşviq etmək istiqamətində çalışır.

Bu nəşr Heinrich Boell Stiftung Tbilisi Ofisi – Cənubi Qafqaz Regionu ilə əməkdaşlıq çərçivəsində hazırlanmışdır. Bu nəşrin məzmununa görə yalnız müəllif məsuliyyət daşıyır. Nəşr nə Heinrich Boell Stiftung Tbilisi Ofisi – Cənubi Qafqaz Regionu, nə də Gürcüstan Siyasət İnstitutunun fikirlərini əks etdirir.

BU SƏNƏDDƏN NECƏ SİTAT GƏTİRMƏLİ:

Vüqar Baxşəlizadə, *"Türkiyəyə enerji təchizatının təmin olunması: Ankara Azərbaycanın enerji sektoruna investisiya yatırmağa davam etməlidirmi?"* Analitik qeyd No. 26, Gürcüstan Siyasət İnstitutu, may 2020-ci il.

© Georgian Institute of Politics, 2020
Tel: +995 599 99 02 12
Email: info@gip.ge
www.gip.ge